**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№368/1** **30 sentyabr 2024-cü il**

**"Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun imzalanmasının 30 illiyinə həsr olunmuş "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda 2024-cü ilin 16-17 sentyabr tarixlərində keçirilmiş beynəlxalq elmi-praktik konfransın yekunları barədə**

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun imzalanmasının 30 illiyinə həsr olunmuş "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın yekunları barədə Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədovun məruzəsini dinləyərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2024-cü il 16-17 sentyabr tarixlərində Azərbaycan Respublikasının Auditorlar Palatasının təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın yüksək səviyyədə keçirilməsi qeyd edilsin.
2. "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətin göndərilməsi nəzərə alınsın (əlavə olunur).
3. "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə Hesabatın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi nəzərə alınsın (əlavə olunur).
4. Konfransın nəticələri barədə məlumatların, fotoşəkillərin və video materialların toplanaraq Palatanın internet səhifəsində yerləşdirilməsi nəzərə alınsın.
5. Auditorlar Palatasının icraçı direktoruna (S.Gülməmmədov) tapşırılsın ki:

- Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinə;
- "Qarabağ" otelinin rəhbərliyinə;
- "Ramada by Wyndham Bakı" otelinin rəhbərliyinə;
- Konfransda iştirak edən xarici qurumların nümayəndələrini müşayiət edən Palata üzvlərinə və əməkdaşlarına təşəkkür məktubunun göndərilməsi təmin edilsin.

6. Konfransın keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının aşağıda adları qeyd edilən üzvlərinə təşəkkür elan edilsin:

Auditor təşkilatları:
"A Audit and Consulting" MMC-nin direktoru Rüfət Əliyev
"Azel - Audit" MMC-nin direktoru Elzadə Süleymanova
"AZFİN AUDİT" MMC-nin direktoru İbadət Binyətov
"ANR Audit" MMC-nin direktoru Namiq Abbaslı
"Analitik-Audit Konsaltinq" MMC-nin direktoru Abbasəli Qurbanov
"ATC SERVICES" MMC-nin direktoru Orxan Rzayev
"AZƏRUÇOT" MMC-nin direktoru Eldar Təhməzov
"A PLUS AUDİT" MMC-nin direktoru cənab Azər Əliyeva
"AF Audit" MMC-nin direktoru Adil Vahabov
"Accountal Finans Biznes Konsaltinq" MMC-nin direktoru Ürfət Əliyev
"Audit  Target" MMC-nin direktoru Məmməd Məmmədov

“Bakı Hesabat Mərkəzi” MMC-nin direktoru Mehdi Babayev
“BKR Consulting” MMC-nin direktoru Elçin Əliyev
“Baker Tilly Azərbaycan” QSC-nin direktoru Şahin Həsənov
“BDO Azərbaycan” MMC-nin İdarəedici partnyoru Yunis Salayev
“Caspian Consalting and Partners” MMC-nin direktoru Elnurə Abdinova
“Cavid-Audit” MMC-nin direktoru Şahbaz Məmmədov
“Deloitte&Touche” MMC-nin direktoru Nuran Kərimov
“Ernst & Yang Holdinqs (SiAyEs)” şirkətinin Azərbaycan Respublikasindakı nümayəndəliyinin İdarəedici partnyoru İlqar Vəliyev
“ECONOMİC-CHA” MMC-nin direktoru Sevda Cəfərova
“Elvi AUDİT ” MMC-nin direktoru Elxan İsmayılov
“FİNANS AUDİT-M” MMC-nin direktoru Mübariz Məhərrəmov
“FCHAİN AUDİT” MMC-nin direktoru Valid Hüseynov
“HİMMARA AUDİT” MMC-nin direktoru Anar Məmmədov
“İnvest Finance” MMC-nin direktoru Anar Bayramov
“İNTERAUDİTSERVİCE” MMC-nin direktoru Anar Abbasov
“İnter Audit” auditor təşkilatının direktoru Əlimuxtar Bağırov
“KH.J.A Audit-Consulting Xidməti” MMC-nin direktoru Xaləddin Əliyev
“KPMG Audit Azerbaijan” MMC-nin Audit departamentinin partnyoru Nəsibə Muradxanova
“Keynes Finance Group” MMC-nin direktoru Elyar Haşımov
“L.B. Audit Xidməti” MMC-nin direktoru Lamiyə Bayramova
“Local Audit” MMC-nin direktoru Fərhad Quliyev
“Macron Group Azerbaijan” MMC-nin direktoru Xosrov Yusifov
“Nexia EA” QSC-nin direktoru Həsən Haqverdiyev
“NET FINANCE” MMC-nin direktoru Aqşin Əsgərov
“ONE CONSULTING GROUP” MMC-nin direktoru Ələddin Babayev
“Praysvoterhauskupers Audit Azərbaycan” MMC-nin Audit departamentinin rəhbəri Fəxri Mustafayev
“Provise” MMC-nin direktoru Nurlan Orucov
“Professional Financial Experts” MMC-nin direktoru Rəşad Həsənov
“SR Audit Solutions” MMC-nin direktoru Səftər Vəlizadə
“TİMP” MMC-nin direktoru Orxan Məhərrəmov
“UHY Audit” MMC-nin direktoru Təbriz Mirzəyev
“Xəzər-Audit 2019” MMC-nin direktoru Raul Musayev
“Yeni Zaman-Audit” MMC-nin direktoru Hüseyn Cəbiyev

Sərbəst auditorlar:
Aydın Hüseynov
Aftandil Əliyevə
Cavid Xıdırbəyliyə
Çingiz Abbasova
Hafiz Əhmədova
Natiq Əliyevə
Qulu Soltanova
Şəmşinur Hüseynova
Yaşar Abbasov

7. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, on gün müddətində bu qərarın 6-cı bəndində nəzərdə tutulan üzvlərin şəxsi işlərinə müvafiq qeydlərin aparılması təmin edilsin.

8. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki:

8.1. on gün müddətində konfransın işində iştirak edən yerli və xarici məruzəçilərə minnətdarlıq məktubunun göndərilməsi təmin edilsin;

8.2. iki həftə müddətində konfransla bağlı məlumatların (ingilis və rus dillərində), foto və video materialların tədbirdə iştirak edən xarici nümayəndələrə çatdırılması təmin edilsin.

9. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) və Aparat rəhbərinin müavininə (F.Kamalova) tapşırılsın ki, iki həftə müddətində konfransın toplusuna daxil edilməsi məqsədilə Palataya daxil olmuş, habelə konfransda səsləndirilən təbrik nitqlərinin toplanması və rəhbərliyə təqdim olunması təmin edilsin.

10. Palatanın Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində konfransın fotoşəkillərindən ibarət bir nüsxədə foto albomun hazırlanması təmin edilsin.

11. Palatanın daxili auditoruna (Ş.Əsgərova) tapşırılsın ki, iki həftə müddətində konfransla bağlı materialların, məruzə və təqdimatların, foto və video çəkilişlərin iki nüsxədə Palatanın arxivinə təhvil verilməsi təmin edilsin.

12. Sədrin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) tapşırılsın ki, bir ay müddətində konfransa təqdim olunan məruzə və tezislərdəki təkliflər təhlil edilərək onların həyata keçirilməsi üzrə tövsiyələrin hazırlanıb rəhbərliyə təqdim olunması təmin edilsin.

13. Palatanın icraçı direktoruna (S.Gülməmmədov), Sədrin müşavirinə (F.Qarayev) və Sədrin elmi-metodik məsələlər üzrə müşavirə (N.Talıbov) tapşırılsın ki, iki həftə müddətində Auditorlar Palatası və İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) arasında imzalanmış Anlaşma Memorandumundan irəli gələn müddəaların Palatanın 2025-ci il üzrə iş planına daxil olunması barədə təkliflərini təqdim etsinlər.

14. Auditorlar Palatasının icraçı direktoruna (S.Gülməmmədov) tapşırılsın ki, “Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfransın təşkilində fəal iştirak edən şəxslərin mükafatlandırılması barədə təkliflərini versin.

15. Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Şuranın sədri** **Vahid Novruzov**